**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№363/2** **21 fevral 2024-cü il**

# 2023-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil barədə

Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 4.1-ci "2023-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlilin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsi (Q.Əhmədov) və Palatanın Şurası yanında Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə (E.Əliyev) tərəfindən hazırlanmış "2023-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil"i müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "2023-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin vəziyyətinə dair icmal-təhlil" bəyənilsin (əlavə olunur).
2. 2023-cü ildə auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditlərin keyfiyyətinə kənar nəzarətin tam əhatə olunmaması Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədovun və Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi komitəsinin sədri E.Əliyevin nəzərlərinə çatdırılsın və onlara tapşırılsın ki, yol verilmiş geriliyi cari ilin I yarımili ərzində aradan qaldırsınlar.
3. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinə (Q.Əhmədov) və Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi komitəsinə (E.Əliyev) tapşırılsın ki, "Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən aparılmış auditlərin keyfiyyətinin monitorinqinin həyata keçirilməsi üzrə 2024-cü il üçün Plan-qrafik"ə uyğun olaraq işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi təmin edilsin.
4. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin müfəttişləri Hacı-Əzizov İlham İsfəndiyar oğluna, Kərimov Şamxal Vəli oğluna və Talıbov Vidadi Musa oğluna 2023-cü il ərzində keyfiyyətə kənar nəzarət qaydasında həyata keçirilmiş monitorinqlərdə fəal iştirak etdiklərinə görə şəxsi işlərinə qeyd edilməklə təşəkkür elan edilsin.
5. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu qərarın 4-cü bəndindən irəli gələn məsələləri həll etsin.
6. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin 2023-cü il ərzində keyfiyyətə kənar nəzarətə dair monitorinqlərdə fəal iştirak etmiş əməkdaşları fərqləndirilsinlər.
7. Bu qərarın və icmal-təhlilin mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**